**Siyasətdə və Dövlət Əhəmiyyətli Qərarların verilməsində Qadın və Kişilərin Balanslaşdırılmış İştirakına Dair Avropa Şurasının Nazirlər Kabinetinin Tövsiyələrinin Rec 2003(3) Azərbaycan Respublikasında yerinə yetirilməsinin monitorinqinin nəticələri haqqında**

# HESABAT

# REPORT

**on the monitoring of the implementation of (2003)3 Recommendations of the Committee of the Ministers of the European Council on Balanced Participation of Men and Women in the Process and Public Decision Making**

# ОТЧЕТ

**о мониторинге выполнения в Азербйджанской Республике Рекоммендации 2003(3) Комитета Министров Совета Европе о Сбалансированным Участии Женщин и Мужчин в Процессе Принятия Решений в Области Политики и Общественной Жизни**

Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi Avropa Şurası Nazirlər Komitəsinin üzv dövlətlər üçün nəzərdə tutulan 12 mart, 2003-cü ildə qəbul edilmiş *“Siyasətdə və Dövlət Əhəmiyyətli Qərarların Qəbul Edilməsində Qadın və Kişilərin Balanslaşdırılmış iştirakı”* Tövsiyə və İzahat Memorandumunun Azərbaycanda həyata keçirilməsinin monitorinqini aparmışdır. Bu monitorinqin nəticələri əsasında hazırkı hesabat təqdim edilir. Hesabat Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyinin əməkdaşları Ülviyyə Məmmədova (layihənin direktoru), Nizami Heydərov (ekspert), Gülarə Əfəndiyeva (ekspert), Leyla Sayfutdinova (ekspert) və digərlərinin yaxından iştirakı nəticəsində hazırlanmışdır.

Monitorinq və hesabatın nəşri Açıq Açıq Cəmiyyət İnstitutu-Yardım Fondunun maliyyə dəstəyi ilə reallaşmışdır.

* * * * * * * *

Public Union for Gender Equality and Women’s Initiatives has realized monitoring of implementation of Recommendation Rec (2003) 3 of the Committee of Ministers to member states on balanced participation of women and men in political and public decision making adopted on 12 March 2003 and explanatory memorandum in Azerbaijan. The results of this monitoring are presented in this Report. The report was prepared with close involvement of the colleagues of the Public Union for Gender Equality and Women’s Initiatives – Ulviyya Mammadova (project director), Nizami Heydarov (expert), Gulara Afandiyeva (expert), Leyla Sayfutdinova (expert) and others.

Monitoring and publication of this Report has been made possible thanks to the funding from Open Society Institute Assistance Foundation.

* * * * * * * *

Общественное Объеденение Гендерное Равенство и Женские Инициативы провело мониторинг выполнения в Азербайджане Рекомендации и меморондума разьеснений Комитета Министров Союза Европы предназначенных для государств-членов, принятых 12 марта 2003 года Rec 2003(3) о Сбалансированном Участии Женщин и Мужчин в Процессе Принятия Решений в Области Политики и Общественной Жизни. Данный отчет представлен согласно результатам этого мониторинга подготовленного с непосредственным участием коллег Общественного Объеденения Гендерное Равенство и Женские Инициативы - Ульвия Мамедова (директор проекта), Низами Гейдаров (експерт), Гюлара Ефендиева (експерт), Лейла Сайфутдинова (експерт) и другие.

Реализация мониторинга и опубликование отчета осущиствились при материальной поддержке Института Открытое Общество - Фонда Содействия.

**BAKI 2009**

**Siyasətdə və Dövlət Əhəmiyyətli Qərarların Verilməsində Qadın və Kişilərin Balanslaşdırılmış İştirakına Dair Avropa Şurasının Nazirlər Komitəsinin Tövsiyələrinin Rec 2003(3) Azərbaycan Respublikasında yerinə yetirilməsinin monitorinqinin nəticələri haqqında hesabat**

**MÜNDƏRİCAT**

**Giriş** ...................................................................................... **3**

**Birinci fəsil Azərbaycan Respublikasında gender hüquq bərabərliyinin institusional və hüquqi əsasları**........................................................ **4**

1.1. Gender münasibətlərinin qanuni nizamlanması ........................................ 4

1.2. Siyasətdə və dövlət əhəmiyyətli qərarların verilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına dair Avropa Şurasının nazirlər Kabinetinin üzv ölkələr üçün nəzərdə tutulmuş tövsiyələri. Rec (2003)3........................................ 5

**İkinci fəsil Qərarların qəbul edilmə prosesində qadınlar və kişilərin iştirakı**...................... **6**

I. Parlamentlərə (milli\federal\regional) və hər partiyadan yerli özünüidarə orqanlarına seçilmiş qadınlar və kişilərin faiz göstəricisi ........................................ 6

II. Hər siyasi partiyadan irəli sürülmüş qadın namizədlərlə kişi namizədlərin faiz göstəriciləri ilə, həmin Partiyalardan Parlamentə (üstmilli, milli) seçilmiş qadınların və kişilərin faiz göstəriciləri ilə nisbəti (uğur əmsalı)........................................ 8

III. Təyin olunmuş assambleyaların (məs. Avropa Şurasının Parlament assambleyası və Avropanın yerli və regional hakimiyyətlərinin Konqresi) nəzdindəki milli nümayəndəliklərin eləcə də beynəlxalq təşkilatların və forumların tərkibində fəaliyyət göstərən qadınlar və kişilərin faiz göstəricisi........................................ 11

IV. Milli, federal və regional hakimiyyət orqanlarının tərkibində fəaliyyət göstərən qadınlar və kişilərin faiz nisbəti və V. Avropa Şurasına üzv ölkələrin milli, federal və regional hökumət orqanlarının müxtəlif fəaliyyət sahələrində çalışan kişi və qadın nazirlərin, dövlət katiblərinin say tərkibi ........................................ 11

VI. Yüksək rütbəli qadın və kişi məmurların faiz nisbəti və onların fəaliyyət sahələri üzrə paylaşdırılması........................................ 13

VII. Ali məhkəmənin qadın-kişi hakimlərinin faiz nisbəti........................................ 13

VIII. Hökumət tərəfindən təyin edilmiş orqanlarda qadınların və kişilərin faiz nisbəti............... 14

IX. Milli səviyyədə siyasi partiyaların rəhbər orqanlarının tərkibində qadınların və kişilərin faiz nisbəti ........................................ 14

X. Sahibkarlar ittifaqlarına, həmkarlar ittifaqlarına və sindikatlara üzv olan, eləcə də milli səviyyədə həmin strukturların rəhbər orqanlarının tərkibindəki qadınların və kişilərin faiz nisbəti ........................................ 15

**Üçüncü fəsil Empirik sosioloji tədqiqatın nəticələrinin analizi**........................................ **17**

3.1. Azərbaycan Respublikasının cənub bölgələrində (üç rayonda) monitorinq çərçivəsində keçirilmiş sosioloji sorğunun analizi........................................ 17

3.2.Qadın-liderlərin internet sorğusunun nəticələri........................................ 20

**Dördüncü fəsil Nəticələr və Tövsiyələr**........................................ **22**

4.1. Nəticələr ........................................ 22

4.2. Tövsiyələr........................................ 23

Sorğu anketləri........................................ 25

## Giriş

Gender hüquq bərabərliyi demokratik cəmiyyətin inkişafının və insan hüquqlarına riayət edilməsinin əsas prioritetlərindən biridir. Azərbaycan Respublikası qanunvericilik səviyyəsində qadın və kişilərin tam bərabərliyini qəbul edir, lakin təcrübə göstərir ki, əksəriyyət ölkələrdə olduğu kimi, Azərbaycanda da vəsait və hakimiyyətə nail olmaqda, ictimai və siyasi proseslərə təsir səviyyəsində fərqli yanaşma prinsipləri özünə yer tapmışdır. Bu neqativ halların aradan qaldırılması məqsədilə dünya birliyi qadınların cəmiyyətdəki rolunun artırılmasına və onların ictimai həyatda tamhüquqlu iştirakının maneələrinin dəf edilməsinə yönəldilmiş bir sıra sənədlər toplusu hazırlamışdır: Qadınlara qarşı hər cür ayrı-seçkiliyin ləğv edilməsi haqqında Konvensiya (CEDAW), Pekin platforması, müxtəlif regional və Avropa hüquq aktları və s. Bu beynəlxalq aktların içində ən əsaslarından sayılan siyasi və ictimai həyatda qərarların qəbul edilmə prosesində qadınların və kişilərin balanslaşdırılmış iştirakına dair Avropa Şurasının Nazirlər Kabinetinin üzv ölkələr üçün nəzərdə tutulmuş tövsiyələridir. Rec (2003)3.

2003-cü ilin mart ayında Avropa Şurasının nazirlər Kabineti tərəfindən qəbul edilmiş tövsiyələrin əsas məğzi qərarların qəbul edilmə prosesində qadınların və kişilərin balanslaşdırılmış iştirakının təmin olunmasına yönəlmiş bir sıra tədbirlərin həyata keçirilməsidir (1-ci Bölmədə bu tədbirlər haqqında ətraflı məlumat verilir). Bu tədbirlərin siyahısına qərarların qəbul edilməsi sahəsində tövsiyə edilmiş gender balansının göstəricilərinə nail olmaq prinsiplərinə nəzarət və monitorinqlərin keçirilməsi də aiddir (42-48-ci bəndlər). Monitorinq həm dövlət orqanları, eləcə də müxtəlif ictimai təşkilat institutları tərəfindən keçirilə bilər. Bu hesabat "Gender Bərabərliyi və Qadın Təşəbbüsləri " İctimai Birliyi tərəfindən keçirilmiş belə bir monitorinqin nəticələrini özündə əks etdirir. Monitorinqin və bu hesabatın məqsədi siyasi qərarların qəbul edilməsində gender balansı səhəsində hal-hazırki vəziyyət barəsində ictimaiyyətin məlumatlandırılmasıdır. Hesabat dörd hissədən ibarətdir. Birinci - giriş hissəsində Azərbaycanda gender hüquq bərabərliyinin qısa xarakteristikası, eləcə də Respublikada qəbul edilmiş gender qanunvericiliyi və adıçəkilən tövsiyələr haqqında məlumat verilir. İkinci bölmədə bələdiyyə və mərkəzi dövlət hakimiyyəti orqanları səviyyəsində siyasi və ictimai əhəmiyyətli qərarların qəbul edilməsində qadınların və kişilərin iştirakının kəmiyyət analizi təqdim edilmişdir. Bu bölmə mətbuatda, nəşriyyat buraxılışlarında və İnternetdə dərc olunmuş, böyük oxucu kütləsi üçün nəzərdə tutulmuş məlumatlara əsaslanmışdır. Üçüncü bölmədə 2008-ci ilin noyabr ayında "Gender Bərabərliyi və Qadın Təşəbbüsləri" İctimai Birliyinin trenerləri tərəfindən Azərbaycanın cənub bölgəsinin 3 zonasında: Neftçala, Kürdəmir və Lənkəran rayonlarında keçirilmiş orta həcmli sosioloji sorğunun analizi təqdim olunmuşdur. Dördüncü-axırıncı bölmədə qərarların qəbul edilməsində qadınlar və kişilərin iştirakının göstəricilərinin yaxşılaşdırılması üzrə tövsiyələrin və keçirilmiş monitorinqin əsas nəticələri göstərilir.

## BİRİNCİ FƏSİL

### Azərbaycan Respublikasında gender hüquq bərabərliyinin institusional və hüquqi əsasları.

### 1.1. Gender münasibətlərinin qanuni nizamlanması

Azərbaycanda gender hüquq bərabərliyi məsələləri üzrə fəalyyət göstərən xüsusi bir dövlət qurumu yoxdur. Qadın siyasətinin problemləri ilə məşğul olan yeganə Dövlət Komitəsi mövcuddur. Bu, 1998-ci ildən 2006-cı ilə qədər fəaliyyət göstərən, qadın problemləri üzrə Dövlət Komitəsinin nəzdində yaradılmış Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsidir. Bu komitə isə 2006-cı ildə yaradılmışdır. Qurumun adından göründüyü kimi, qadınların problemləri ailə kontekstində həll olunur, yəni bu üsulla ən-ənəvi olan əmək bölgüsü yenə də öz təsdiqini tapır. Qadının yeri evdə, ailədədir. Beynəlxalq səviyyədə gender siyasətini prioritet kimi qəbul etmiş bir ölkə üçün belə vəziyyət çətin ki, qəbul edilən olsun.

Azərbaycanda qadınlar və kişilərin bərabərliyini nəzərdə tutan maddələr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında (25-1-ci maddə), eləcə də başqa ümumi qanunverici aktlarda (Mülki Məcəllə, Əmək Məcəlləsi və s.) özünə yer tapmışdır. Bu adıçəkilən ümumi qanunverici aktlardan başqa qadın və kişilərin ictimai vəziyyətini nizamlayan başqa xüsusi aktlar da mövcuddur. 1998-ci ilin 14 yanvar tarixində "Qadınların rolunun artırılması haqqında Fərman" və "Qadın problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman" qəbul edilmişdir; 2000-ci il mart ayının 6-da "Qadın siyasətinin həyata keçirilməsi haqqında 289 saylı Fərman" qəbul edilmişdir, həmin fərmanın məqsədi isə qadın problematikasının dövlət siyasətinin xüsusi bölməsinə daxil edilməsidir. Azərbaycanda qadın və kişilərin ictimai vəziyyətini nizamlayan əsas qanunverici akt Milli Məclis tərəfindən qəbul edilmiş və 10 oktyabr 2006-cı ildə Respublika Prezidenti tərəfindən təsdiq edilmiş "Gender bərabərliyinin təmin edilməsi haqqında" Qanundur. Bu milli sənədlərlə yanaşı Azərbaycan gender bərabərliyinin bərqərar edilməsinə yönəlmiş bir neçə beynəlxalq hüquqi aktlara qoşularaq onların icrasına başlamışdır. Bu aktlardan "Qadınlara qarşı ayrı-seçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında" Konvensiyanı (CEDAW), "Qadınların siyasi hüquqları haqqında Konvensiya", Beynəlxalq Əmək Təşkilatının "Hər bir növ yeraltı şaxtalarda qadın əməyindən istifadə olunması barəsində" 45 saylı, "Eyni dəyərə malik olan işə görə qadın və kişilərin bərabər mükafatlandırılması haqqında" 100 saylı, "Analığın qorunması haqqında" 111 saylı, "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" 103 saylı Konvensiyalarını, bir qismdə Avropa Sosial Xartiyasını və başqalarını göstərmək olar.

Yuxarıda göstərilmiş milli və beynəlxalq hüquqi aktların Azərbaycanda daha effektiv həyata keçirilməsinin təmin olunması məqsədilə qadın siyasi məsələləri üzrə beşillik iş planları da qəbul olunur. İlk belə plan (Azərbaycan Respublikasının qadın inkişafı üzrə Milli iş planı) qadın işləri üzrə Dövlət Komitəsi tərəfindən 1999-cu ildə qəbul edilmiş və 2000-2005-ci illəri əhatə etmişdir. "Qadınlara qarşı ayrı-seçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında" Konvensiyanın və Pekin Platformasının müddəalarına uyğun tərtib olunmuş bu plan, 12 strateji sahə üzrə gender məsələrinə dair müxtəlif iş prinsiplərini nəzərdə tutmuşdur: iqtisadiyyat, təhsil, sağlamlıq, qadınlara qarşı zorakılıq, hərbi münaqişələr zamanı qadınların problemləri, qaçqın və

məcburi köçkün düşmüş qadınların problemləri, insan hüquqları, KİV, ətraf mühit, yeniyetmə qızların problemləri, qərarların qəbul edilmə prosesində qadınların iştirakı, beynəlxalq qadın təşkilatları ilə əlaqələrin inkişaf etdirilməsi. Milli iş planının reallaşdırılması məqsədilə İdarələrarası Şura yaradılmışdır, onun tərkibinə nazirliklərin, dövlət idarələrinin nümayəndələri və 12 strateji sahə üzrə müvafiq məsələlərlə məşğul olan qeyri hökumət təşkilatlarının təmsilçiləri daxil edilmişdilər. Yuxarıda göstərilən vaxt kəsimi ərzində gender bərabərliyi haqqında Qanun layihəsinin hazırlanması istiqamətində işlər görülmüşdür, milli qanunvericiliyin gender ekspertizası və statistik göstəricilərin gender seqreqasiyası başlanmışdır, ailə daxilində qadın zorakılığı, eləcə də beynəlxalq insan alveri sahəsindəki problemlərə hüquq-mühafizə orqanlarının diqqətinin artırılmasına yönəlmiş tədbirlər keçirilmişdir[1].

2007-2011-ci illəri əhatə edən növbəti Milli iş planı yeni yaradılmış "Ailə, Qadın və Uşaq problemləri üzrə" Dövlət Komitəsi tərəfindən qəbul edilmişdir. Bu plan da öz əsası kimi yuxarıda qeyd edilmiş konvensiyaları götürür. Lakin, ikinci Milli Planın özünəməxsusluğu ondan ibarətdir ki, yeni yaradılmış komitənin fəaliyyət sahəsinə uyğun olaraq o, daha çox ailə problemlərinə, ələlxüsus qadının ailədəki vəziyyətinə diqqət ayırır. Bu iş planı gender sahəsində qadınların-kişilərin hüquqi və iqtisadi qeyri-bərabərliyinin ləğvi, qadınların sosial müdafiəsi, qadınlara qarşı zorakılıqla mübarizə və gender maarifçiliyinə yönəldilmiş səyləri nəzərdə tutur. Hal-hazırki vaxtda da yuxarıda göstərilən Milli Planın icrası üzrə iş davam edir.

### 1.2. Siyasətdə və dövlət əhəmiyyətli qərarların verilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına dair Avropa Şurasının Nazirlər Kabinetinin üzv ölkələr üçün nəzərdə tutulmuş tövsiyələri. Rec (2003)3.

Gender bərabərliyinin əldə olunmasına yönəldilmiş regional və beynəlxalq hüquqi aktların siyahısına, hansılar ki, həmçinin də Azərbaycan qoşulmuşdur, siyasətdə və dövlət əhəmiyyətli qərarların verilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına dair Avropa Şurasının Nazirlər Kabinetinin üzv ölkələr üçün nəzərdə tutulmuş tövsiyələri də daxildir. Rec (2003)3. Bu aktın adından məlum olduğu kimi o, məcburi yox, tövsiyəedici xarakter daşıyır, lakin, buna baxmayaraq, həmin sənəddən dövlətin gender siyasətinin təsir qüvvəsinə malik bir alət kimi istifadə oluna bilər. Adıçəkilən sənəd 2003-cü ilin 12 mart tarixində Avropa ölkələri Nazirlik Nümayəndələrinin 831-ci iclası çərçivəsində qəbul edilmişdir. Bu tövsiyələrin qəbul edilməsinin vacibliyi Avropa Şurasına üzv olan bir çox ölkələrdə müşahidə olunan formal gender bərabərliyi ilə qadınlar və kişilərin iqtisadi, sosial və mədəni vəsaitlərə qeyri-bərabər əlçatma prinsipinin reallığı arasında olan böyük fərqin mövcudluğundan irəli gəlmişdir. Avropa Şurasının Nazirlər Komitəsi belə hesab edir ki, həqiqi bərabərliyə nail olmaq yolunda ən ciddi maneələrdən biri cinslər arasında sosial rolların bölünməsi haqqında olan davamlı, ən-ənəvi təsəvvürlərdir. Bu təsəvvürlər, ən-ənəvi olaraq kişilərin fəaliyyət sahəsi sayılan mühüm siyasi və ictimai qərarların qəbul edilməsi prosesində daha çox kök atmışdır. Məhz buna görə də, siyasətdə və dövlət əhəmiyyətli qərarların verilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına nail olmaq gender hüquq bərabərliyinin əldə olunması üçün çox önəmlidir. Ümumilikdə, gender hüquq

[1] Qadınlara Qarşı Bütün Növ Ayrı-Seçkiliyin Aradan Qaldırılması Konvensiyasının 18-ci bəndinə uyğun olaraq, ikinci və üçüncü məlumtlar vaxtaşırı olaraq Azərbaycan Respublikasının dövlət orqanları tərəfindən məruzə edilir. (http://www.gender-az.org/Files/N0527214.pdf)

bərabərliyinin, qadınlar və kişilərin balanslaşdırılmış iştirakının insan hüququnun, cəmiyyətin demokratik inkişafının və həyatın keyfiyyətinin yaxşılaşdırılmasının ayrılmaz bir hissəsi olduğuna əsaslanaraq, Avropa Şurasının Nazirlər Komitəsi üzv ölkələrə bu cür balanslaşdırılmış nümayəndəliyin əldə olunmasına kömək göstərmək vəzifəsini boyunlarına götürməyi tövsiyə etmişdir. Tövsiyə siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilmə prosesində qadınlar və kişilərin balanslaşdırılmış iştirakı üçün minimal dəhliz kimi, hər cinsdən 40 faizlik təmsilolunma şərtini müəyyən edir.

Ümumilikdə, tövsiyə Avropa Şurasına üzv ölkələrin nümayəndələri üçün 8 tapşırıq irəli sürmüşdür ki, bunların da həlli qərarların qəbul edilmə prosesində qadınların və kişilərin iştirakının daha çox balanslaşdırılması yolunda mühüm rol oynayacaqdır. Bu tapşırıqlar vətəndaş və siyasi hüquqların bərabər bölünməsi, seçici hüququndan şəxsən istifadə olunması (bütün ailənin əvəzinə bir nəfərin səs verməsinin yolverilməzliyi), ictimai həyatda qadınların aktiv iştirakının stimullaşdırılması, qanunvericilikdə, qərarların qəbul edilmə prosesində qadınların balanslaşdırılmış iştirakına yönəldilmiş dəyişikliklərin edilməsi, keçirilən siyasətin nəticələrinə nəzarətin təmin olunması kimi məsələləri nəzərdə tutur. Azərbaycan, tövsiyələrin həyata keçirilməsinin monitorinqi çərçivəsində siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilmə prosesində qadın və kişilərin iştirakının gender-seqreqasiya statistikası üzrə CDEG-in keçirdiyi monitorinqlərdə iştirak edir[2].

## İKİNCİ FƏSİL

### Qərarların qəbul edilmə prosesində qadınlar və kişilərin iştirakı.

Tövsiyənin 44-cü bəndi monitorinqin şərtlərini müəyyən edərək onun həyata keçirilməsinə nəzarət edir və qərarların qəbul edilmə prosesində qadınların və kişilərin balanslaşdırılmış iştirakının bir sıra göstəricilərini nəzərdə tutur. Bu göstəricilər regional və dövlət səviyyəsində qanunverici, məhkəmə və icra orqanlarında, eləcə də yerli özünüidarə orqanlarında (bələdiyyələrdə) və siyasi partiyalarda çalışan qadınların kişilərə nisbətini özünə daxil edir. Bundan əlavə, bizneslə məşğul olan insanların əhatəsində də qadınların iştirakı nəzərə alınır.

Hər göstərici üzrə Azərbaycanda gedən işlərin vəziyyəti ilə ətraflı tanış olaq.

#### I. Parlamentlərə (milli\federal\regional) və hər partiyadan yerli özünüidarə orqanlarına seçilmiş qadınlar və kişilərin faiz göstəricisi

Azərbaycanın parlamenti (Milli Məclis) ölkənin əsas qanunverici orqanıdır, majoritar sistem üzrə beş ildə bir dəfə seçilir. Son parlament seçkiləri 2005-ci ildə seçilmiş və bu çağırışın müddəti 2010-cu ilə qədər uzadılacaqdır.

---

[2] Sex-disaggregated statistics on the participation of women and men in political and public decision-making in Council of Europe member states. Situation as at 1 September 2008. Information document prepared by the Gender Equality Division. Directorate General of Human Rights and Legal affairs. 2009

Parlament seçkiləri nəticəsində 15 nəfər qadın-deputat və 110 nəfər kişi-deputat seçilmişdir. Lakin, son nəticədə seçkidə qalib çıxmış qadın deputatlardan biri Lalə Şövkət Hacıyeva, seçkilərin nəticələrinə etiraz əlaməti olaraq, Parlamentin işində iştirak etməkdən imtina etmişdir. Hal-hazırda 125 nəfər deputatdan cəmi 14 nəfəri qadındır (11,2%).

Milli Məclisin Sədri vəzifəsini kişi deputat, vitse-spiker vəzifəsini isə qadın deputat tutmuşdur.

Milli Məclisdə 12 daimi komitə fəaliyyət göstərir: Hüquqi Siyasət və Dövlət Quruculuğu məsələləri üzrə, İqtisadi Siyasi məsələlər üzrə, Təbii Sərvətlər üzrə, Energetika və Ekologiya üzrə, Aqrar siyasət üzrə, Bölgələrin məsələləri üzrə, Elm və Təhsil məsələləri üzrə, Mədəniyyət məsələləri üzrə, İnsan Hüquqları üzrə Beynəlxalq Münasibətlər və Parlamentlərarası əlaqələr üzrə. Yalnız bir komitənin sədri qadındır- İnsan Haqqları üzrə Komitə (8,3%).

**Regional qanunverici orqanlar**

Azərbaycanda yalnız bir regionun-Naxçıvan Muxtar Respublikasının 45 nəfər deputatdan ibarət öz parlamenti (Ali Məclis) var. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin tərkibində yalnız bir nəfər qadın-deputat fəaliyyət göstərir (2%).

**Yerli özünüidarə orqanları (bələdiyyələr)**

17 dekabr 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə şuralarına 20 346 üzv seçilmişdir. Onlardan 19 516 nəfəri (95,9%) kişi və 830 nəfəri (4,1%) isə qadındır[3]. Azərbaycanda son (əlavə) bələdiyyə seçkiləri 6 oktyabr 2006-cı il tarixdə keçirilmişdir. Seçkilərdə 4576 nəfər namizəd iştirak etmiş, onlardan 1930 nəfəri bələdiyyə üzvü seçilmişdir. Bələdiyyəyə seçilmiş 65 (3,37%) nəfər üzv qadındır[4]. Vəziyyətin bu durumu qadınların seçkilərdə iştirakının aşağı səviyyədə olmasından xəbər verir: belə ki, 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərinin vətəndaş monitorinqinin nəticələrinə görə, həmin seçkilərdə 76,2% kişi və 23,8% qadın iştirak etmişdir[5]. Monitorinqin nəticələri göstərir ki, qadınlar parlament seçkilərinə nisbətən bələdiyyə seçkilərinə daha az maraq göstərirlər və bələdiyyə seçkiləri zamanı çox aşağı səviyyəli seçici aktivliyi nümayiş etdirirlər[6]. Yerli özünüidarə üzrə Parlament Komissiyasının 2000-2005-ci illər üzrə sədr müavini deyir: "Əgər qadın bələdiyyə orqanına seçilmişsə də, lider mövqeyini tuta bilməyəcək. Ələlxüsus indiki vaxtda, hansı ki, məhz bələdiyyələrin işi torpaq

[3] Bu informasiya Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasından alınıb http://www.cec.gov.az/en/3municipal2004/report/cins.htm

[4] http://www.infocenter.gov.az/v3/statistika/en.xls

[5] www/gender-az/org.politics.report/stamp//

[6] Alternativ hesabat. Qadınlara Qarşı Bütün Növ Ayrı-Seçkilyin Aradan Qaldırılması Konvensiyasının Azərbaycanda həyata keçirilməsinin monitorinqi, səh. 12

sahələrini paylamaq və ya satmaqdan ibarətdir, bu halda qadını oraya sadəcə yaxın buraxmazlar”[7].

**II. Hər siyasi partiyadan irəli sürülmüş qadın namizədlərlə kişi namizədlərin faiz göstəriciləri ilə, həmin partiyalardan Parlamentə (üstmilli, milli) seçilmiş qadınların və kişilərin faiz göstəriciləri ilə nisbəti (uğur əmsalı);**

Azərbaycanda majoritar seçki sistemi fəaliyyət göstərir, buna uyğun olaraq deputatlar Parlamentə partiya siyahıları üzrə yox, təkmandatlı dairələr üzrə seçilirlər. Partiyalar öz nümayəndələrini seçki prosesinin başqa iştirakçıları ilə yanaşı olaraq, yalnız təkmandatlı dairələr üzrə irəli sürə bilərlər. Deputat yerlərinin gender paylaşdırılmasına uyğun olaraq, bu o deməkdir ki, proporsional və qarışıq seçki sisteminə malik olan ölkələrə nisbətən, siyasi partiyalara üzv olmaq qadın-deputatların seçilməsinə çox az təsir göstərə bilir. Bununla bərabər, deputatlığa namizədlərin hansısa partiyalara məxsus olmaları, bütövlükdə Azərbaycanda gedən siyasi proseslərdə qadınların rolunun göstəricisidir, partiyalara üzv olan qadınların müxtəlif orqanlara seçilməsi, müəyyən miqdarda onların həm partiya daxilində, həm də ümumilikdə, hakimiyyətin qanunverici orqanlarında siyasi qərarların qəbul edilmə prosesindəki iştirakının səviyyəsini özündə əks etdirir.

Son seçki kampaniyası zamanı Mərkəzi Seçki Komissiyasına qeydiyyat üçün 2004 nəfər (90,03%) kişi və 223 nəfər (9,97%) qadın-Milli Məclisə deputatlığa namizəd müraciət etmişdir[8]. MSK-nın məlumatlarına görə, ümumilikdə 6 noyabr 2005-ci il tarixə yəni seçki elan olunmuş günə qədər, 1372 nəfər kişi-namizəd və 167 nəfər (10,85%) qadın-namizəd rəsmi qeydiyyatdan keçmişdir. Azərbaycanda gender üzrə tanınmış ekspert sayılan E. Qasımovanın fikrincə, belə aşağı səviyyəli aktivlik hələ də cəmiyyətin ən-ənəvi olaraq qadınların dövlət xadimi kimi qəbul edilməsinə və siyasi həyatın obyektiv reallıqlarına hazır olmamasından irəli gəlir, çünki seçki kampaniyası qadınların malik olmadıqları külli miqdarda maddi vəsait tələb edir[9].

Seçkilərdə deputatlığa namizəd qismində iştirak edən 166 nəfər qadından 68 nəfəri siyasi partiyaların üzvü olmuşdur. Bununla bərabər, seçkilərdə iştirak edən 47 partiyadan cəmi 15 partiya qadın üzvlərinin namizədliyini irəli sürmüşdür.

**1-ci cədvəl Partiyalar üzrə deputatlığa namizədlər.**

| **Partiyanın adı** | **Kişilər** | **Qadınlar** |
|---|---|---|
| Azərbaycan Demokratik partiyası | 29 | 1 |
| Azərbaycan Xalq Cəbhəsi partiyası | 47 | 3 |

[7] 2000-2005-ci illər Milli Məclisin Yerli özünüidarə etmə orqanları ilə iş üzrə Komissiyasının sədr müavini S.Hüseynzadə ilə müsahibə, bax. Alternativ hesabat. Qadınlara Qarşı Bütün Növ Ayrı-Seçkiliyin Aradan Qaldırılması Konvensiyasının Azərbaycanda həyata keçirilməsinin monitorinqi

[8] Qasımova E. Azərbaycanda Parlament seçkilərinin gender şəkli, Bakı: AGİM, 2005, bax 4

[9] Qasımova E. Azərbaycanda Parlament seçkilərinin gender şəkli, Bakı: AGİM, 2005, bax 4

| | | |
|---|---|---|
| Azərbaycan Demokratik Reformalar partiyası | 12 | 1 |
| Azərbaycan Kommunist partiyası | 14 | 2 |
| Azərbaycan Liberal partiyası | 50 | 6 |
| Azərbaycan Milli Müstəqillik partiyası | 49 | 2 |
| Azərbaycan Sosial Firavanlıq partiyası | 15 | 1 |
| Azərbaycan Ümid partiyası | 24 | 3 |
| Milli Konqres partiyası | 4 | 1 |
| "Müasir Musavat" partiyası | 14 | 2 |
| "Musavat" partiyası | 43 | 2 |
| "Vəhdət" partiyası | 13 | 2 |
| Vətəndaş Birliyi partiyası | 2 | 1 |
| Vətəndaş Həmrəyliyi partiyası | 18 | 2 |
| "Yeni Azərbaycan" partiyası | 388 | 39 |
| **C Ə M İ** | | |

Mənbə: Azərbaycan parlament seçkilərinin 28 saylı gender analizi[10].

Cədvəldən göründüyü kimi, hətta qadın namizədləri irəli sürən partiyalarda da onların sayı həddən azdır. Ən çox qadın namizəd "Yeni Azərbaycan" partiyasından irəli sürülmüşdür, amma bu halda da qadınların payı ümumi sayın cəmi 9 faizini təşkil edir. Faiz göstəricisinə görə qadın namizədlərə düşən ən böyük pay Vətəndaş Birliyi partiyasına məxsusdur-bu partiyada hər iki namizəddən biri qadındır. Orta hesabla isə həm qadın, həm də kişi namizədləri irəli sürmüş partiyalarda qadınların payı 8,6 % (790-dan 68-i) təşkil etmişdir.

Seçilmiş qadın deputatların arasında cəmi iki partiya təmsil olunmuşdur: "Yeni Azərbaycan" (5 qadın) və "Musavat" (1 qadın) partiyaları. Liberal partiyasından da bir nəfər qadın seçilmişdi, lakin O, sonra deputat mandatından imtina etdi. Qalan 8 nəfər qadın-deputat heç bir partiyanın üzvü deyildir.

[10] http://www.gender-az.org/index.shtml?id_doc=658

**2-ci cədvəl Seçilmiş deputatların gender və partiya mənsubiyyətləri.**

| Partiya mənsubiyyəti | Kişilər | Qadınlar | Cəmi | Kişilər % | Qadınlar % |
|---|---|---|---|---|---|
| Yeni Azərbaycan | 56 | 5 | 61 | 91,8 | 8,2 |
| Musavat | 4 | 1 | 5 | 80 | 20 |
| Xalq Cəbhəsi partiyası | 1 | 0 | 1 | 100 | |
| Ana Vətən partiyası | 2 | 0 | 2 | 100 | |
| Vətəndaş Həmrəyliyi partiyası | 3 | 0 | 3 | 100 | |
| Ümid partiyası | 1 | 0 | 1 | 100 | |
| Sosial rifah partiyası | 1 | 0 | 1 | 100 | |
| Demokratik Reformalar partiyası | 1 | 0 | 1 | 100 | |
| Vahid Xalq Cəbhəsi partiyası | 1 | 0 | 1 | 100 | |
| Böyük Quruluş | 1 | 0 | 1 | 100 | |
| Vətəndaş Birliyi partiyası | 1 | 0 | 1 | 100 | |
| Ədalət partiyası | 1 | 0 | 1 | 100 | |
| Partiyasızlar | 38 | 8 | 46 | 82,6 | 17,4 |
| C ə m i | 111 | 14 | 125 | 88,8 | 11,2 |

Qadınların müstəqil deputat qismində seçilmə faizi, partiyalı qadınlara nisbətən azdır: müvafiq olaraq 99-dan 8-i (8%) və 68-dən 7-si (10,2%).

Hər iki cinsdən olan namizədlərini irəli sürmüş partiyalarda qadınların və kişilərin uğur qazanma əmsalı aşağıdakı kimidir:[11]

**3-cü cədvəl. Qadınlar və kişilərin uğur qazanma əmsalı**

| Partiaya | Kişilər | Qadınlar |
|---|---|---|
| “Yeni Azərbaycan” partiyası | 101 | 89 |
| “Musavat” partiyası | 84 | 455 |

---

[11] Formula üzrə yekun əmsal:

$$\text{Qadınların uğur əmsalı} = \frac{\text{Seçilmiş qadınların faiz göstəriciləri}}{\text{Qadın namizədlərin faiz göstəriciləri}} *100$$

$$\text{Kişilərin uğur əmsalı} = \frac{\text{Seçilmiş kişilərin faiz göstəriciləri}}{\text{Kişi namizədlərin faiz göstəriciləri}} *100$$

Bax. Tövsiyələrə əlavə 137-ci bənd

**III. Təyin olunmuş assambleyaların (məsələn, Avropa Şurasının Parlament assambleyası və Avropanın yerli və regional hakimiyyətlərinin Konqresi) nəzdindəki milli nümayəndəliklərin, eləcə də beynəlxalq təşkilatların və forumların tərkibində fəaliyyət göstərən qadınlar və kişilərin faiz göstəricisi;**

Azərbaycan parlamentariləri bir neçə üstmilli qanunverici orqanlarda iştirak edir: Avropa Şurasının Parlament Assambleyası (AŞPA), NATO-nun Parlament Assambleyası, MDB-yə üzv ölkələrin Parlament Assambleyası. Gender balansına görə ən yaxşı vəziyyət Azərbaycanın AŞPA-dakı nümayəndəliyində müşahidə olunur. Bu nümayəndəlik 12 nəfərdən ibarətdir, onlardan 3 nəfəri (25%) qadındır. NATO-nun Parlament Assambleyasındakı Azərbaycan nümayəndiliyi 5 nəfərdən ibarətdir, onlardan biri (20%) qadındır. MDB-yə üzv ölkələrin Parlament Assambleyasındakı nümayəndəlik 18 nəfərdən ibarətdir, onlardan 2 nəfəri (11%) qadındır.

**IV. Milli, federal və regional hakimiyyət orqanlarının tərkibində fəaliyyət göstərən qadınlar və kişilərin faiz nisbəti.**

**və**

**V. Avropa Şurasına üzv ölkələrin milli, federal və regional hökumət orqanlarının müxtəlif fəaliyyət sahələrində çalışan kişi və qadın nazirlərin, dövlət katiblərinin say tərkibi.**

Azərbaycanda icra hakimiyyətinin ali orqanı Nazirlər Kabinetidir, onun tərkibinə Baş nazir, onun dörd müavini, nazirlər, dövlət komitələrinin və agentliklərin sədrləri daxildir. Bütövlükdə Nazirlər Kabinetinin tərkibində 39 insan çalışır. Nazirlər Kabinetinin yalnız bir üzvü qadındır - Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri (2,5%).

Ayrılıqda nazirliklər üzrə olan məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

**4-cü cədvəl. Nazirliklər üzrə gender paylaşdırılması.**

| Nazirliyin adı | Nazir | | Nazir müavini | |
|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın |
| Daxili İşlər nazirliyi[12] | 1 | 0 | 4 | 0 |
| Ekologiya və Təbii Sərvətlər nazirliyi[13] | 1 | 0 | 2 | 0 |
| Ədliyyə nazirliyi[14] | 1 | 0 | 3 | 0 |

[12] www.mia.gov.az

[13] www.eco.gov.az

[14] www.justice.gov.az

| | | | | |
|---|---|---|---|---|
| Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi | 1 | 0 | 2 | 0 |
| Fövqəladə Hallar nazirliyi | 1 | 0 | 5 | 0 |
| Gənclər və İdman nazirliyi[15] | 1 | 0 | 2 | 0 |
| Xarici İşlər nazirliyi[16] | 1 | 0 | 5 | 0 |
| İqtisadi İnkişaf nazirliyi[17] | 1 | 0 | 2 | 1 |
| Kənd Təsərrüfatı nazirliyi | 1 | 0 | 3 | 0 |
| Maliyyə nazirliyi[18] | 1 | 0 | 2 | 0 |
| Mədəniyyət və Turizm nazirliyi[19] | 1 | 0 | 2 | 1 |
| Milli Təhlükəsizlil nazirliyi[20] | 1 | 0 | 3 | 0 |
| Müdafiə Sənayesi nazirliyi[21] | 1 | 0 | 2 | 0 |
| Müdafiə nazirliyi | 1 | 0 | 3 | 0 |
| Nəqliyyat nazirliyi[22] | 1 | 0 | 1 | 0 |
| Rabitə və İnformasiya Texnologiyaları nazirliyi[23] | 1 | 0 | 2 | 0 |
| Səhiyyə nazirliyi | 1 | 0 | 2 | 1 |
| Sənaye və Energetika nazirliyi | 1 | 0 | 1 | 0 |
| Təhsil nazirliyi | 1 | 0 | 2 | 1 |
| Vergilər nazirliyi[24] | 1 | 0 | 4 | 0 |
| **C Ə M İ** | 20 | 0 | 52 | 4 |

Beləliklə, Azərbaycan Respublikasının Hökumətində kişilərin dominant rolunda olduqları açıq-aşkardır. Nazirlər səviyyəsində heç bir qadın yoxdur, nazir müavinləri səviyyəsində isə qadınlara düşən pay cəmi 6 faizdir, bu isə Avropa Şurasının tövsiyə etdiyi səviyyədən 6 dəfə azdır.

Naxçıvan Muxtar Respublikasının hökumətinin tərkibində yalnız bir nəfər qadın fəaliyyət göstərir. O, vitse-spiker vəzifəsini tutur.

---

[15] www.mys.gov.az

[16] mfa.gov.az

[17] www.economy.gov.az

[18] www.maliyye.gov.az/

[19] www.mct.gov.az

[20] www.mns.gov.az

[21] www.mdi.gov.az

[22] www.mintrans.az

[23] www.mincom.gov.az

[24] www.taxes.gov.az

## VI. Yüksək rütbəli qadın və kişi məmurların faiz nisbəti və onların fəaliyyət sahələri üzrə paylaşdırılması;

Azərbaycan Respublikasında icra hakimiyyətinin vacib orqanlarından ən əsası Prezident Apparatıdır. Prezident Apparatı qanun layihələrini, eləcə də Prezidentin göstərişlərini, fərmanları Milli Məclisə təqdim etmək üçün hazırlayır, Prezidentin fərmanlarının və qanunların həyata keçirilməsinə nəzarət edir, Prezidentin dövlət orqanları və ictimai təşkilatlarla təmasını təmin edir. Ümumi rəhbərliyi Apparatın Rəhbəri həyata keçirir. Apparatın strukturuna bunlar aiddir: dörd xidmət (İqtisadi siyasət məsələləri üzrə Dövlət Müşaviri Xidməti, Milli azlıqlar və dini strukturlarla iş üzrə Dövlət Müşaviri Xidməti, Mətbuat katibliyi xidməti və Protokol Xidməti), Dəftərxana, Prezidentin işlər İdarəsi və 13 şöbə. Hal-hazırda bu 19 bölmədən cəmi ikisinin qadın başçılıq edir-bu, Dəftərxana və Humanitar Siyasət Şöbəsidir. İki bölmədə (Milli azlıqlar və dini strukturlarla iş üzrə Dövlət Müşaviri Xidməti və İşlər İdarəsi) rəhbər vəzifəsi vakantdır. Beləliklə, Prezident Apparatının rəhbər vəzifələrində çalışan qadın və kişilərin nisbəti 11,7 faizə bərabərdir[25].

Bundan əlavə, Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil vəzifəsi də mövcuddur (Ombudsman). Bu vəzifəni qadın tutur.

Naxçıvan Muxtar Respublikasında Ombudsman vəzifəsi mövcuddur, həmin vəzifəni də qadın icra edir.

## VII. Ali məhkəmənin qadın-kişi hakimlərinin faiz nisbəti.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin tərkibinə dörd məhkəmə kollegiyası daxildir: Cinayət işləri üzrə Kollegiya, Vətəndaş işləri üzrə Kollegiya, İqtisadi mübahisələrin həlli üzrə Kollegiya və Hərbi məhkəmələrin işi üzrə Kollegiya. Ali Məhkəmənin iki kollegiyasında qadınlar təmsil olunmuşdur: Vətəndaş işləri üzrə Kollegiya (17 nəfərdən üçü, 17,6%) və İqtisadi mübahisələrin həlli üzrə Kollegiya (4 nəfərdən biri, 25%), hətta Vətəndaş işləri üzrə Kollegiyanın sədri də qadındır. Məhkəmənin rəhbərliyi 4 nəfərdən ibarətdir: Ali Məhkəmənin Sədri və ilk 3 kollegiyanın sədrləri. Beləliklə, Ali Məhkəmənin rəhbərliyinə bir nəfər qadın daxildir-Vətəndaş İşləri üzrə Kollegiyanın sədri (25%)[26]. Ümumilikdə Ali Məhkəmənin tərkibində 12,5 % qadın var (32 nəfərdən dördü).

Azərbaycanda başqa vacib məhkəmə orqanı konstitusiya ədalətliyini bərqərar edən-Konstitusiya məhkəməsidir. Konstitusiya Məhkəməsi doqquz hakimdən ibarətdir. Onun tərkibində bir qadın var, hansı ki, sədr müavini vəzifəsini icra edir (11%)[27].

---

[25] www.prezident.az

[26] www.supremecourt.gov.az

[27] www.constcourt.gov.az

## VIII. Hökumət tərəfindən təyin edilmiş orqanlarda qadınların və kişilərin faiz nisbəti;

Azərbaycan Respublikasının İcra hakimiyyətində əsas rolu dövlət komitələri tutur. Azərbaycanda on dövlət komitəsi var:

Dini Məsələlər üzrə Dövlət Komitəsi
Dövlət Gömrük Komitəsi
Şəhərsalma və Arxitektura üzrə Dövlət Komitəsi
Diaspora ilə iş üzrə Dövlət Komitəsi
Statistika üzrə Dövlət Komitəsi
Qaçqınlarla iş üzrə Dövlət Komitəsi
Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Standartlaşma, Metrologiya və Patentlər üzrə Dövlət Komitəsi
Torpaq və Xəritəçəkmə üzrə Dövlət Komitəsi
Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi

Bundan əlavə, Azərbaycanda iki dövlət fondu mövcuddur-Dövlət Sosial Müdafiə Fondu (DSMF) və Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF), eləcə də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ). Bütün bu strukturlardan yalnız birinə qadın rəhbərlik edir-Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi (7,7%)[28].

Buna oxşar vəziyyət nəhəng dövlət kampaniyalarında da müşahidə olunur. Məsələn, son 10 ildə (yəni neft müqaviləsi bağlandıqdan sonra) Dövlət Neft Şirkətinin orta idarəçilik səviyyəsində qadınların təmsilounma göstəricisi 75%[29], Xəzər Gəmiçilik idarəsində isə 95% aşağı enmişdir.

## IX. Milli səviyyədə siyasi partiyaların rəhbər orqanlarının tərkibində qadınların və kişilərin faiz nisbəti;

Azərbaycanda keçirilən son parlament seçkilərində 47 siyasi partiya iştirak etmişdir. Bütün bu partiyaların cəmiyyətdəki çəkisi eyni deyil. O biri tərəfdən, rəhbərliyin gender tərkibi haqqında olan məlumatı bütün partiyalar üçün əlçatan deyil. Bu səbəbdən, hal-hazırki hesabatda biz yalnız dörd siyasi partyaya aid olan məlumatları göstəririk.

Azərbaycanda yalnız bir partiyaya (Liberal partiya) qadın başçılıq edir. Təəssüf ki, həmin partyanın siyasi şurasının tərkibi haqqında məlumat əldə etmək mümkün olmadı.

Azərbaycanın ən böyük partiyası-yarım milyona yaxın üzvü olan "Yeni Azərbaycan" partiyasıdır. Partiyanın rəhbərliyi sədrdən, onun iki müavinindən və Siyasi Şuradan ibarətdir. Sədr və müavinlərin vəzifələrini kişilər icra edir, lakin Siyasi Şuranın tərkibində qadınlar da var-90 nəfərdən 12 nəfəri yəni 13,3%.

---

[28] Rəsmi portal materialları üzrə www.azerbaijan.az

[29] "Azərbaycan Neftçi-Qadınlar Cəmiyyəti" və "Xəzər Gəmiçi Qadınlar".
http://www.gender-az.org/doc/en/development/assessment.pdf

Respublikanın ən qocaman partiyalarından olan Musavat partiyasında, rəhbərliyin tərkibi başqandan, müavinlərdən və 23 nəfərin daxil olduğu divandan ibarətdir. Başqan və onun müavinlərinin vəzifələrini kişilər icra edir, amma Musavatın divanında iki nəfər qadın çalışır (9%). Məlumatlar var ki, bir neçə il bundan öncə bu partiya rəhbər orqanların formalaşdırılması prosesində gender kvotalaşdırılmasını tətbiq etməyə səy göstərmişdir[30]. Qadınların iştirakının kvotası 20 faizə bərabər olmuşdur, bu isə tövsiyələrdə nəzərdə tutulmuş 40 faizlik dəhlizdən düz iki dəfə azdır. Lakin, bu səylərə baxmayaraq, Musavatın rəhbərliyində qadınların real iştirakı heç 20 faizə də çatmamışdır.

Demokratik Reformalar partiyasında da sədr və onun müavinlərinin vəzifələrinə kişilər başçılıq edir, lakin Siyasi Şurada iki nəfər qadın təmsil olunmuşdur-11 nəfərdən ikisi (18%).

Ümumilikdə, belə qərara gəlmək olar ki, Azərbaycanın siyasi partiyalarında da qərarların qəbul olunma sahəsində qadınların aşağı səviyyəli iştirakı müşahidə edilir. "Vacib qərarların qəbul edilməsində qadınların iştirakının genişləndirilməsinə yönəlmiş təşəbbüs və proqramlar ləngiyir, dövlət postlarının qadınlar tərəfindən tutulması üçün məəlumatlandırılma və təbliğat lazımi səviyyədə aparılmır. Vacib rəhbər vəzifələri tutan qadınların sayı siyasətə ciddi təsir göstərmək üçün kifayət deyil" [31].

## X. Sahibkarlar ittifaqlarına, həmkarlar ittifaqlarına və sindikatlara üzv olan, eləcə də milli səviyyədə həmin strukturların rəhbər orqanlarının tərkibindəki qadınların və kişilərin faiz nisbəti.

Sahibkarlıq sahəsinin rəhbər vəzifələrində də qadınların iştirakı çox aşağıdır. Məsələn, Azərbaycan Sahibkarlar Təşkilatlarının Konfederasiyasının tərkibində 3500 üzv var, onların 90 faizini kişilər təşkil edir[32]. Bu vəziyyət biznes sahəsində fəaliyyət göstərən qadınların ümumi aktivliyinin aşağı səviyyədə olması ilə bağlıdır. Məsələn, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin verdiyi məlumatlara görə, bizneslə məşğul olan qadınların 69 faizindən, cəmi 3 faizi şəxsi biznesə malikdir[33]. Ekspertlərin rəyinə görə, bütövlükdə respublika üzrə olan sahibkarların 7-8 faizi qadınlardır[34].

Öz sıralarına 27 sahə üzrə həmkarlar ittifaqlarını daxil edən və 1,2 milyon üzvə malik olan Azərbaycan Həmkarlar Konfederasiyasının tərkibi 52% kişi və müvafiq olaraq 48% qadından ibarətdir. Lakin, rəhbər orqanlarda vəziyyət başqa cürdür və qadınların sayı həddən artıq azdır:

[30] Kasumova, E. Analysis of the Democratization process in Azerbaijan: a gender Perspective. Baku, 2007.

[31] Müsavat Partiyası Qadın şöbəsinin rəhbəri Sevinc Hüseynova ilə müsahibə, bax. Alternativ hesabat. Qadınlara Qarşı Bütün Növ Ayrı-Seçkilyin Aradan Qaldırılması Konvensiyasının Azərbaycanda həyata keçirilməsinin monitorinqi

[32] Azərbaycan Sahibkarlar Konfederasiyasının sədri ilə telefon müsahibəsi, 20 aprel 2009-cu il.

[33] Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məruzəsi. Bakı, 2005, bax. 5

[34] "Women Entrepreneurs". International Labour Organization. National Confederation of Entrepreneurs (Employers) Organization of Azerbaijan Republic.2004. p.27

72% kişi və 28% qadın. Buna baxmayaraq, qeyd etmək lazımdır ki, ümumilikdə respublika üzrə, həmkarlar ittifaqlarındakı vəziyyət başqa təşkilatlara nisbətən olduqca yaxşıdır.

Biznes strukturlarının və həmkarlar ittifaqlarının rəhbərliyində qadınların bu cür aşağı səviyyəli iştirakını iqtisadi sferanın özündə mövcud olan vəziyyətlə aydınlaşdırmaq olar.

"Respublikada ən böyük bank olan Azərbaycan Beynəlxalq Bankının idarə heyətinin tərkibində bir nəfər də qadın yoxdur. Belə oxşar vəziyyət "Unibank"-ın və nəhəng lizinq kampaniyası sayılan "Azeri Leasing"-in də idarə heyətlərində müşahidə olunur. "Kredit-analitik şöbədə çalışdığım 7 il ərzində mən biznes-planı təsdiq olunmuş təkcə bir nəfər qadını görmüşəm. Azərbaycan Beynəlxalq Bankı ilk ödənişi minimum 40.000$-dan az olmayan məbləğə biznes-kreditlər verir, qadınların isə bu miqdarda pulları yoxdur" [35].

Azərbaycanda biznesin inkişafının, eləcə də qadın sahibkarlığının qanunverici bazası qadınlara sahibkarlıq sahəsinin tam hüquqlu iştirakçısı olmaq üçün şərait yaradır, lakin onların fəaliyyəti üçün heç bir güzəştli şərtlər nəzərdə tutmur. Azərbaycanda qadın sahibkarlığının inkişafı üçün obyektiv səbəblərin, o cümlədən ayrı-seçkiliyi inkar edən qanunvericiliyin olmasına baxmayaraq, sahibkarlıqla məşğul olmaq istəyən qadınlar bir çox problemlərlə üzləşirlər.

Qadınların və kişilərin mülkiyyət sahibi olmaları məsələlərində də bir çox ziddiyyətlər mövcuddur. Beynəlxalq Əmək Təşkilatı (BƏT) layihəsi çərçivəsində keçirilmiş tədqiqatların nəticələrinə görə, mülkiyyətə sahib olma hallarında kişilər qadınları 90% qabaqlayırlar[36]. Məsələn, Respublikanın mərkəzi bölgələrində kredit almaq üçün əmanət qoyma imkanları qadınlarda kişilərə nisbətən iki dəfə azdır və bunu 56,0% qadın və 32,9% kişi təsdiqləyir. Mülkiyyətə sahib ola bilməmək faktı kredit imkanlarını minimuma endirir. Mülkiyyət (ev, torpaq sahəsi) sertifikatı, və ya mülkiyyət sənədi müəyyən səbəblərə görə, icra hakimiyyəti orqanlarının bu məsələyə soyuq münasibəti də daxil olmaqla, olmayan qadınlar 33,9%, kişilər isə 16,8% təşkil edir[37].

---

[35] Azərbaycan Beynəlxalq Bankın kredit-analiz şöbəsinin rəhbəri K. Hüseynov ilə müsahibə, Assessment BAS EBRD TAM/BAS. Development of Consulting Services for Azeri Business Women. 2006. Baku . p. 32

[36] Women Entrepreneurs. International Labour Organization. National Confederation of Entrepreneurs (Employers)Organization of Azerbaijan Republic.2004. p.26

[37] Tədqiqatın nəticələri və gender əməliyyatlarının həyata keçirilməsinin ardıcıllığının prespektivləri, kənd təsərrüfatı proqramı çərçivəsində ( layihə AZBA 42 ) və OXFAM Fondunun beynəlxalq qarşılıqlı imkanlar proqramı. Azərbaycanda diskriminasiya hallarının qarşısının alınması faktoru kimi.

## ÜÇÜNCÜ FƏSİL

### Empirik sosioloji tədqiqatının nəticələrinin analizi.

### 3.1 Azərbaycan Respublikasının cənub bölgələrində (üç rayonda) monitorinq çərçivəsində keçirilmiş sosioloji sorğunun analizi.

Monitorinq çərçivəsində siyasətdə və dövlət əhəmiyyətli, vacib-ictimai qərarların qəbul edilməsi prosesində qadınlar və kişilərin balanslaşdırılmış iştirakının mənimsənilməsi üzrə sosioloji sorğu keçirilmişdir. Sorğu, gender bərabərliyi haqqındakı təsəvvürlərin mərkəzdən-dövlət siyasətinin həyata keçirildiyi yerdən uzaqda yaşayan insanların şüurlarında nə qədər dərin olduğunu öyrənmək üçün məhz kənd yerlərində keçirilmişdir. Sorğunun əsas məqsədi qərarların qəbul edilməsində minimal iştiraka malik olan qadınların münasibətini öyrənməkdən ibarət idi. Buna müvafiq olaraq, seçim qarışıq və "qar topası" metodlarından istifadə edilməklə, məqsədəuyğun aparılırdı. Sorğuda 18 yaşdan 70 yaşa qədər 113 qadın iştirak etmişdir.

**Seçimin sosial – iqtisadi statusu.**

Sorğuda iştirak edən qadınların 70 faizi evli, 25,5 faizi subay, və yalnız 3,5 faizi natamam ailələrdən olmuşdur. Təhsil səviyyəsinə görə isə, sorğuda iştirak edən qadınların 53 faizi tam, və ya natamam ali təhsilə malik olmuşlar, 45 faizi orta təhsilli (tam orta, natamam orta və texniki təhsil də daxil olmaqla) və yalnız 2 faizi ibtidai təhsillidirlər. Qadınların əksəriyyəti işləyirlər: onların 57,5 faizi qulluqçudur, 3 faizi qeyri-hökumət təşkilatlarında çalışır, 31 faizi isə xidmət sahələrində çalışır. Sorğuda iştirak edənlərin yalnız 7 faizi heç yerdə işləmir və evdarlıqla məşğuldur.

**Əldə olunmuş məlumatların analizi**

Sosioloji sorğunun sualları əsasən qadınların qərarların qəbul olunması prosesində balanslaşdırılmış iştirak etmə məsələsinə münasibətlərini öyrənmək sahəsinə yönəlmişdi. Sorğuda iştirak edənlərin 90 faizi qadınların ictimai həyatda, biznes və siyasət də daxil olmaqla, daha aktiv iştirak etməsinin tərəfdarı olduqlarını bildirdilər. 60 faizi hakimiyyət orqanlarında qadınların və kişilərin balanslaşdırılmış iştirakının vacib olduğunu vurğuladılar (13% bu məsələnin əleyhinə olduqlarını, 25% isə cavab verməkdə çətinlik çəkdiklərini bildirdilər). Sorğuda iştirak edənlərin 81 faizi dövlət vəzifələrinin qadınlarla kişilərin arasında bərabər paylaşdırılmasında eyni imkanların təmin ounmasına tərəfdardır (6% əleyhinə və 12% cavab verməkdə çətinlik çəkmişlər).




Sorğuda iştirak edənlərin əksəriyyəti qərarların qəbul olunma prosesdə qadınların və kişilərin balanslaşdırılmış iştirakına nail olmağa kömək edə biləcək tədbir kimi kvotaların tətbiq edilməsini göstərmişlər (68%). İkinci və üçüncü yerləri qadınlarla (61%) və qanunverici icra orqanlarının işçiləri (50%) ilə maarifləndirici işlərin aparılması tutur.

Beləliklə, sorğuda iştirak edən qadınların böyük əksəriyyəti qərarların qəbul edilmə sahəsində qadınların daha aktiv iştirakının vacibliyini vurğulamışdır. Belə fikir yaranır ki, bu çox müsbət nəticədir. Amma narahatedici fakt odur ki, göstərilən nəticələrə baxmayaraq, təkcə mərkəzi dövlət hakimiyyəti səviyyəsində yox, həm də bələdiyyə orqanları səviyyəsində qərarların qəbul edilmə prosesində qadınların real iştirakı həddən azdır. Bu fərqin səbəbi nədir? Əgər biz, qərarların qəbul edilmə prosesində sorğu iştirakçılarının məhz şəxsi iştirakına aid olan cavablarını araşdırsaq, onda bu suala cavab tapa bilərik. Belə ki, sorğuda iştirak edənlərin cəmi 2,6 faizi nə vaxtsa namizəd qismində seçkilərdə iştirak etmişdir (həm parlament, həm də bələdiyyə seçkiləri nəzərdə tutulur).

“Siz öz deputatlığa namizədliyinizi irəli sürmək istərdinizmi?”-sualına respondentlərin əksəriyyəti mənfi cavab vermişdir: 73%. Dövlət qulluğunda çalışmaq məsələsində vəziyyət bir qədər yaxşılığa doğru dəyişir: 49,5% dövlət vəzifələrində çalışmaq istədiklərini bildirmişdir. Lakin, hətta bu vəziyyətdə də daha abstrakt suallarda olduğu kimi iştirakçıların əksəriyyətinin müsbət fikri müşahidə olunmur.

Maraqlıdır ki, parlamentə seçilmək, və ya dövlət qulluğunda çalışmaq istəyi yaş həddi ilə az bağlıdır və müxtəlif yaş qrupları arasında az fərqlənir:




Sosial vəziyyətlə bağlı fərqlər daha qabarıq görünür. Məsələn, işləyən qadınların cəmi 27,6 faizi, evdar qadınların isə 12,5 faizi Milli Məclisə seçilmək üçün öz namizədliklərini irəli sürmək istərdilər.




Milli Məclisə deputat kimi öz namizədliklərini irəli sürmək və dövlət qulluğunda çalışmaq istəyən qadınların arasında olan fərq də çox maraqlıdır-axırıncılar demək olar ki, iki dəfə çoxdur. Milli Məclisə deputat kimi öz namizədliklərini irəli sürmək istəyənlərin 87 faizi, həmçinin dövlət qulluğunda çalışmaq istədiklərini bildirmişlər. Bununla yanaşı, dövlət qulluğunda çalışmaq istəyən qadınların cəmi 46 faizi Milli Məclisə deputat kimi öz namizədliyini irəli sürmək istərdi. Bizim keçirdiyimiz sorğunun nəticələri bu fərqi aydınlaşdırmaq üçün kifayət etmir. Lakin, artıq təsəvvür etmək mümkündür ki, qadınların şüurunda bu iki fəaliyyət sahəsinin iş həcmi, səlahiyyətləri və potensial faydası haqqında kifayət qədər fərq var. Bundan əlavə, "dövlət qulluğunda vəzifə" anlayışının "Milli Məclisin deputatı" anlayışından daha geniş olması aşkardır, və təkcə yüksək dövlət postu yox, həmçinin orta və aşağı səviyyəli vəzifələri də özünə daxil edir.

Beləliklə, qadınların ictimai və siyasi həyatda iştirakına olan münasibətdə açıq-aşkar uyğunsuzluq müşahidə edilir. Bir tərəfdən, sorğuda iştirak edənlər, qadınların ictimai və siyasi həyatda daha aktiv iştirak etmələrinin tərəfdarı olduqlarını bildirmişlər. Digər tərəfdən isə, sorğuda iştirak edən qadınların böyük əksəriyyəti heç bir ictimai və siyasi fəaliyyətlə məşğul deyildir. Bu isə onu göstərir ki, qərarların qəbul edilməsində qadınların iştirakını əngəlləyən yalnız stereotiplər deyil, həm də onların siyasi prosesə tamhüquqlu cəlb edilməsinə mane olan praktiki şəraitdir. Bizim keçirdiyimiz sorğunun nəticələri onu göstərir ki, bu maneələr əksər hallarda qadınların bilik və savadlarının lazımi səviyyədə olmaması və onların həddən artıq ev qayğıları ilə yüklənmələri ilə bağlıdır. Beləliklə, qadınların siyasi həyata cəlb edilmələri üçün yönəlmiş tədbirlər ilk növbədə bu iki problemi həll etməlidir-bir tərəfdən, qadınlara lazımi təhsilin verilməsi və o biri tərəfdən, onların  ev qayğlarından azad edilməsi.

### 3.2 Qadın-liderlərin internet sorğusunun nəticələri.

Azərbaycanın bölgələrində keçirilən sosioloji sorğu ilə yanaşı, Birliyin mütəxəssisləri qadın-liderlərin internet-sorğusunu da keçirmişlər. İnternet-sorğuda on nəfər qadın iştirak etmişdir; onlardan beş nəfəri siyasi fəaliyyətlə məşğuldurlar, o biri beş nəfər isə-vətəndaş cəmiyyətinin liderləri və gender məsələləri üzrə ekspertlərdir.

Ümumilikdə, qadın-liderlər qərarların qəbul edilmə prosesində qadınların qeyri-bərabər iştirakını vurğulayırlar. Lakin, bu qeyri-bərabərliyin səbəblərinə gəldikdə isə, onlar fərqlidirlər. Məsələn, belə fikir var ki, qadınların qeyri-bərabər iştirakının əsas səbəbi mövcud siyasi sistemin demokratik olmaması ilə bağlıdır. Bu fikir müxalifət partiyaları təmsil edən qadın-siyasətçilərə məxsusdur. Məsələn, “Musavat” partiyasının Kürdəmir rayonundakı şöbəsinin sədr müavini Lətafət Məlikovanın fikrincə, seçkilərin qeyri demokratik olması səbəbindən, hakim orqanlar seçkili vəzifələrə özlərinə sərf edən adamları təyin edə bilirlər, həm kişiləri, həm də qadınları. Bundan əlavə, Məlikovanın fikrincə, bilavasitə qadınlara yönəlmiş ayrı-seçkilik mövcud deyil: “qadınların 90 faizi özləri rəhbər vəzifələrdə işləmək istəmirlər, kişilər isə bundan lazımınca istifadə edirlər.”  Yəni, qeyri-bərabərlik mövcuddur, amma o qadınlara qarşı ayrıseçkiliklə yox, demokratik olmayan vəziyyət və qadınlarda rəhbər vəzifələri tutmaq arzusunun olmaması faktları ilə şərtlənmişdir.

Lakin, bu nöqteyi nəzər istisnadır.  Sorğuda iştirak edən qadın-liderlərin əksəriyyəti hesab edir ki, ayrı-seçkilik və qeyri-bərabərlik mövcuddur.  Mövcud olan qeyri-bərabərliyin səbəbləri kimi korrupsiya və nepotizm də göstərilir (A. Abdullayeva, Xelsinki Vətəndaş Assambleyasının rəhbəri).  Lakin, bir çox hallarda ayrı-seçkiliyin səbəbi kimi cəmiyyətdə növcud olan stereotiplər

və patriarxal dəyərlər, eləcə də qadınların ictimai və siyasi fəaliyyətlərinə mane olan ailə və ev qayğıları göstərilir.  Bundan əlavə, belə bir fikir yayılmışdır ki, qeyri-bərabərlik qadınların bilik və savadlarının az olması ilə bağlıdır.

Qərarların qəbul edilməsi sahəsində qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması məsələsində vacib olan tədbir kimi, daha çox mövcud stereotiplərin və qadınlarının şüurlarının dəyişdirilməsinə yönəldilmiş tədbirlər qeyd olunmuşdur. Sorğuda iştirak etmiş liderlərin əksəriyyətinin fikrincə, belə dəyişikliyə qadınların maarifləndirilməsi sayəsində nail olmaq mümkündür-sorğu iştirakçılarının hamısı maarifləndirmə işinin vacibliyini vurğulamışlar. Sorğu iştirakçılarının effektiv hesab etdikləri başqa tədbir isə kvotalaşdırılma və ümumiyyətlə, daha məqsədəuyğun dövlət siyasətinin həyata keçirilməsidir. İştirakçılardan üç nəfəri (M.Vəzir, D.Nağıyeva, M.Ömərova) ev və ailə əməyinin yüngülləşdirilməsinin də vacibliyinin vurğulamışlar.

Qadın-lidrelərin gender bərabərliyi sahəsindəki işlərin vəziyyəti barəsində olan fikirlərini öyrənmək məqsədi daşıyan suallardan başqa, biz sorğu iştirakçılarının şəxsi təcrübələri haqqında da bir sıra suallar ünvanladıq.  Maraqlıdır ki, sorğuda iştirak edən qadın-liderlərin əksəriyyəti özlərinə qarşı heç bir gender ayrı-seçkiliyi hiss etmirlər və kişi həmkarları ilə yaxşı, bərabər hüquqlu münasibətdə olduqlarını bildirmişlər. Bu cavab, sorğuda iştirak etmiş qadınların əksəriyyətinin söylədiyi gender ayrı-seçkiliyi və qeyri-bərabərlik fikirləri ilə ziddiyyət təşkil edir. Belə çıxır ki, gender ayrı-seçkiliyi heç də bütün qadınlara qarşı yönəlməmişdir, və elə qadınlar var ki, bu problemi dəf edə bilirlər. Bu uyğunsuzluğu yuxarıda qeyd olunmuş təhsilin  və qadınların peşəkarlığının lazımi səviyyədə olmaması problemləri ilə aydınlaşdırmaq mümkündür.  Başqa sözlə, mövcud olan ayrı-seşkilik praktikası yetərincə təhsil və bilik səviyyəsinə malik olmayan qadınlara qarşı yönəlmişdir. Kişilərlə eyni səviyyəli bilik və təhsilə malik olan peşəkar qadınlar stereotiplərin neqativ təsirini özlərinə qarşı az hiss edirlər.

Qadın-liderlərin əksəriyyəti, ailə üzvlərinin onların siyasi və ictimai fəaliyyətlərini dəstəklədiklərini qeyd edirlər.  Sorğuda iştirak edən qadınlardan yalnız üç nəfəri bildirmişdir ki, öz ailə üzvlərinin narazıçılıqları ilə qarşılaşmışlar. Əgər bu məlumatları Cənub bölgələrində keçirilmiş anket sorğusunun nəticələri ilə müqayisə etsək, harada ki, qadınların əksəriyyəti ailə qayğılarının çox olmasının onların ictimai fəaliyyətlərinə mane olduğunu bildirmişlər, o nəticəyə gəlmək olar ki, ailə üzvlərinin lazımi dəstəyi qadınların ictimai və siyasi fəaliyyətlərində uğur qazanmalarının vacib faktorudur. Bu faktor isə birbaşa olaraq qadınların cəmiyyətdə mövcud olan rolları haqqındakı stereotiplər və ən-ənəvi təsəvvürlərlə bağlıdır.

## DÖRDÜNCÜ FƏSİL

## Nəticələr və tövsiyələr

### 4.1. Nəticələr

Keçirilmiş monitorinqin daha aşkar nəticələrindən biri odur ki, hal-hazırki vaxtda Azərbaycan Respublikası qərarların qəbul edilmə sahəsində qadınların və kişilərin iştirakının balanslaşdırılmasını tövsiyələr tərəfindən təklif olunmuş səviyyəsindən çox uzaqdır. Azərbaycanın heç bir hakimiyyət qolunda Avropa Şurasının nazirlər Kabineti tərəfindən tövsiyə edilmiş gender balansı müşahidə olunmur. Bu məsələ üzrə ən yaxşı vəziyyət seçilən assambleyaların tərkibindəki milli nümayəndəliklərdə və məhkəmə hakimiyyətlərində müşahidə olunur-Avropa Şurasının Parlament Assableyasında və Ali Məhkəmənin rəhbərliyində - 25%.

Xüsusi narahatçılıq yaradan səbəblərdən biri də odur ki, adətən hakimiyyətin səviyyəsi nə qədər yüksəkdirsə, orada qadınların iştirakı bir o qədər azdır. Belə ki, qadınlar həddən artıq az olsa da, şöbə müdirləri (Prezident Apparatı), dövlət komitələrinin sədrləri, nazir müavinləri, Milli Məclis deputatları, parlament nümayəndəliklərinin üzvləri səviyyəsində fəaliyyət göstərirlər, lakin nazir səviyyəsində bir nəfər də olsa qadın yoxdur, parlament komissiyalarının rəhbərliyində cəmi bir nəfər qadın çalışır və bütün parlament nümayəndəliklərinə kişilər başçılıq edir.

Daha bir narahatedici tendensiya hakimiyyət orqanlarının daxilində qadınlarla kişilər arasında əmək bölgüsünün olmasıdır. Məsələn, güc strukturlarının, xarici siyasət və maliyyə sahələrinin rəhbər vəzifələrində ümumiyyətlə, bir nəfər belə qadın yoxdur. “Qadın” sahələrinə qadın problemləri, insan haqqları, humanitar siyasət, mədəniyyət və vətəndaş məhkəmələri aiddir.

Bu narahatedici tendensiya başqa bir tərəfdən, cəmiyyətin özündə yayılmış təsəvvürlər və davranış normaları ilə təsdiq olunur. Keçirilən sosioloji tədqiqatlar göstərdi ki, ictimai şüurda formal gender bərabərliyi, ictimai həyatda və siyasi proseslərdə qadınların və kişilərin bərabər iştirakı ən-ənəvi həyat normaları ilə birgə yaşayır, bu normalara görə isə, qadının əsas fəaliyyət sahəsi ailə və ev sayılır. İnsanların şüurunda və davranışında olan bu ikili yanaşma, qadınların və kişilərin ümumiyyətlə, həm ictimai həyatda, həmçinin siyasi qərarların qəbul olunması prosesində balanslaşdırılmış iştirakının əldə olunmasına heç də kömək etmir.

Beləliklə, qeyd etmək olar ki, gender barəsində qəbul olunmuş qanunverici sənədlərə və qadınlar və kişilər arasında bərabər hüquqluluğun möhkəmləndiriməsinə baxmayaraq, real nəticələri əldə etmək üçün həm dövlət siyasəti, həm də vətəndaş cəmiyyəti səviyyəsində dəyişikliklərə yönəldilmiş təsiredici və daha effektiv tədbirlərin tətbiqi vacibdir. Növbəti hissədə bir neçə tövsiyələr göstərilmişdir.

## 4.2. Tövsiyələr.

- **Qadınların iqtisadi vəziyyətinin yaxşılaşdırılması.**

Qadınların və kişilərin qərarların qəbul olunması prosesində balanslaşdırılmış iştirakı məsələsi problemlərini ayrı-ayrılıqda həll etmək mümkün deyil, onları başqa gender qeyri-bərabərsizliyi problemləri ilə əlaqəli araşdırmaq labüddür. Məsələn, qadınların siyasi durumuna iqtisadi tərəfdən qeyri-bərabərlik də hissolunan dərəcədə təsir göstərir. Sorğuda iştirak edən qadınlardan bir çoxu parlamentə seçilmək istəmədiklərinin səbəbini, maliyyə imkanlarının lazımi səviyyədə olmaması ilə izah etmişdir. Söhbət yalnız ümumi iqtisadi durumdan getmir, burada seçki kampaniyasının uğurla keçirilməsi üçün lazım olan böyük həcmli maddi vəsaitlərin əlçatmaz olması da nəzərdə tutulur. Biznes aləmində iştirakları zəif olan qadınlar çox vaxt belə imkanlara sahib deyildir. Buna görə də qadınların iqtisadi vəziyyətinin yaxşılaşdırılması, iqtisadi həyatda qeyri-bərabərliliyin ləğvi, qadınların siyasi proseslərdə aktiv iştirak etməsinə şərait yaradacaqdır. Qadınların iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün onlara professional təhsil almaq imkanları yaratmaq vacibdir, qadın sahibkarlığının inkişafını, mikromaliyyələşmə və kreditləşmə proqramlarının vasitəsilə mükafatlandırmaq və stimullaşdırmaq labüddür.

- **Təhsil**

İqtisadiyyatdan əlavə qadınların təhsilinə də diqqət ayırmaq vacibdir. Bizim keçirdiyimiz tədqiqatlar zamanı sorğularda iştirak edən qadınların əksəriyyəti qeyd edirdilər ki, təhsilin lazımi səviyyədə olmaması qadınların ictimai və siyasi proseslərdə bərabərhüquqlu iştirakı yolunda ciddi maneədir. Professional və siyasi sahələrdə uğur qazanmış bir çox qadınlar da bu fikirdədirlər. Təhsil-çox vacib bir sərvətdir, karyera inkişafı üçün, əsasən də qərarların qəbul olunma prosesində mühüm şərtdir. Ona görə də dövlət və cəmiyyət hər cür imkanlardan istifadə etməlidir ki, qızları və qadınları keyfiyyətli təhsil almaq üçün stimullaşdırsınlar. Bu sahədə diqqəti yalnız qadınlarla kişilərin təhsilləri arasında olan fərqə yox, həmçinin təhsil almaq imkanlarının fərqliliyinə və Bakı şəhəri ilə bölgələrdəki təhsilin səviyyəsində yerinə yetirmək lazımdır.

- **Gender bərabərliyi problemləri üzrə xüsusiləşdirilmiş dövlət orqanının yaradılması**

Gender bərabərliyinin təmin olunması məsələsindəki problemlər göstərir ki, mövcud olan institusional mexanizm bu problemin həlli üçün kifayət etmir. Məsələn, qadınların və kişilərin qərarların qəbul olunma prosesində balanslaşdırılmış iştirakı sahəsində, Azərbaycanın qəbul etdiyi öhdəliklərə baxmayaraq, ciddi çatışmamazlıqlar müşahidə edilir. Buna görə də hər bir səviyyədə gender problemləri ilə məşğul olacaq xüsusiləşdirilmiş orqanın yaradılması məqsəduyğun görünür. Belə bir orqanın yaradılması bu sahədə daha da konsolidə edilmiş və məqsədyönlü siyasət aparılmasını mümkün edər. Mövcud qanunvericiliyin, monitorinqin və nəzarətin daha effektiv həyata keçirilməsinə imkan yarada bilərdi. Qeyd etmək lazımdır ki, bu dövlət strukturunun fəaliyyəti "qadın" problemlərinə yox, məhz gender bərabərliyinə yönəlməlidir. Artıq Azərbaycanda qadın problemləri üzrə dövlət strukturu mövcuddur-bu, "Ailə, Qadın və Uşaq problemləri üzrə" Dövlət Komitəsidir. Çətin sosial-iqtisadi şərait, qadın və uşaqların sosial durumunun zəif sayıldığı bir ölkə olan Azərbaycanda belə bir strukturun

əhəmiyyətini dəyərləndirmək artıqdır. Lakin, komitənin adından aydın göründüyü kimi, onun fəaliyyəti ictimai həyatda qadınların və kişilərin bərabər iştirakına yox, daha çox ailə problemlərinə yönəlmişdir. Gender bərabərliyi üzrə xüsusiləşdirilmiş orqanın yaradılması gender problemlərinin daha da hərtərəfli işıqlandırılmasına xidmət edərdi.

- **Gender kvotalaşdırılması**

Ümumiyyətlə kvotalaşdırılma və ayrılıqda gender kvotalaşdırılması çox mübahisəli bir tədbirdir. Məsələn, bu tədbir tamamilə demokratik deyil; bundan əlavə, kvotalaşdırılma ona gətirib çıxara bilər ki, vəzifələri, müvafiq namizədlərdən heç də ən layiq olmayanlar tuta bilər. Lakin, bəzi hallarda hansılarda ki, kvotalaşdırılma məqsədəuyğun olaraq bir çox sosial – siyasi faktorlarla şərtlənmiş konkret qeyri-bərabərsizlik maneəsinin dəf edilməsi üçün istifadə olunur, o vaxt bu tədbir hissolunan səviyyədə təsir gücünə malik ola bilər. Güman edilir ki, Azərbaycanda olan mövcud şəraitdə kvotaların tətbiqi doğrudan da effektiv olacaqdır. Kvotalaşdırılma, qadınların rəhbər vəzifələri tutmaqlarına maneçilik törədən sosial-mədəni stereotiplərin zəifləməsinə xidmət edə bilər. Bundan əlavə, kvotalaşdırılma gender bərabərliyinin təmin edilməsi üzrə hökumətin məqsədlərinin ciddiliyinin təsdiqi kimi də xidmət edə bilər. Nəhayət, keçirilmiş sosioloji sorğuda iştirak edən qadınların böyük əksəriyyəti, bu tədbiri siyasi proseslərdə qadınların və kişilərin qeyri-bərabər iştirakına son qoyacağına əmin olduqlarını bildirmişlər.

- **Maarifləndirici işlər**

Araşdırılan problemlərin "yuxarıdan", dövlət orqanları tərəfindən həll olunmasına yönəlmiş sözügedən iki tədbirdən əlavə, yerlərdə vətəndaş cəmiyyəti səviyyəsində iş aparılması labüddür. Keçirilmiş tədqiqatlar göstərdi ki, qadınlar öz hüquqları və imkan dairələri barəsində kifayət qədər məlumatlı deyillər. Qadınların öz hüquqları və imkanları barədə maarifləndirilməsinin səviyyəsinin artması onlara ictimai həyatda daha aktiv iştirak etməyə kömək edəcəkdir, lakin maarifləndirici işlər tək qadınlara yox, həmçinin kişilərə də istiqamətləndirilməlidir. Vacibdir ki, qadınlar və kişilər siyasi-ictimai həyatda bərabər təmsil olunmaqlarını başa düşsünlər. Uzun müddətli perspektivdə maarifləndirici işlər gender ideyalarının yayılmasına və cəmiyyətdə hökmranlıq edən stereotiplərin tədricən dəf edilməsinə kömək edəcəkdir.

**Əlavə 1. Azərbaycanın Neftçala, Lənkəran və Kürdəmir rayonlarında keçirilmiş sosioloji sorğunun anketi.**

***Siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakı üzrə keçirilən monitorinqinlə bağlı sorğu***

1. Yaşınız _____________
2. Ailə vəziyyətiniz : ☐Subay ☐Evli ☐Natamam ailə
3. Sosial vəziyyəti:
   ☐Qulluqçu ☐Evdar qadın ☐QHT işçisi ☐Xidmət sahəsi
4. Təhsiliniz:
   ☐Ali ☐Natamam ali ☐Orta ☐Natamam orta ☐Orta texniki ☐İbtidai ☐Təhsilsiz
5. Təhsil almaq istərdinizmi?
   ☐Bəli ☐Xeyr
6. Ailədaxili problemlərin həlli zamanı qərar qəbulunda iştirakınızı necə qiymətləndirirsiniz?
   ☐Həlledici ☐Məsləhətverici ☐Iştirak etmirəm
7. İş yerində sizin rəyinizlə hesablaşırlarmı?
   ☐Bəli ☐Xeyr
8. Milli Məclisə, bələdiyyə seçkilərində iştirak edirsinizmi?
   ☐Namizəd kimi ☐Seçici kimi
9. Seçkilərdə Namizəd kimi iştirak etmək istərdinizmi?
   ☐Bəli ☐Xeyr

Nə üçün? ________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

10. Dövlət vəzifəsində işləmək istərdinizmi?
    ☐Bəli ☐Xeyr

Nə üçün? ________________________________________________________________

________________________________________________________________________

11. Seçkilərdə səs verəcəyin bu və ya digər namizədi evdə, ailədə müəyyənləşdirirsinizmi?
    ☐Bəli ☐Xeyr
12. Ailədə, evdə cəmiyyətdə sizə hansı müraciət formaları ilə çağırırlar?
    ☐Qız ☐Xanım ☐Arvad ☐Peşəmə uyğun
13. Cəmiyyətdə, işdə, evdə qadınlara olan münasibətdən razısınızmı?
    ☐Bəli ☐Xeyr ☐Bilmirəm

Nə üçün? ____________________________________________

____________________________________________

____________________________________________

14. Sizin fikrinizcə mövcud qanunvericilik qadın hüquqlarını tam qoruya bilirmi?
☐Bəli ☐Xeyr

Nə üçün? ____________________________________________

____________________________________________

____________________________________________

15. Necə fikirləşirsiniz, qadınlar özlərini necə aparmalıdırlar? (Bir necə cavab variantını seçə bilərsiniz)
   - ☐ Qadın ailədə yalnız öz ərinin dediyinə qulaq asmalıdır.
   - ☐ Ailədə onun qərarları mütləq nəzərə alınmalıdır.
   - ☐ Qadının əsas funksiyası ailə və ev qayğılarını həll etməkdir.
   - ☐ Qadın təkcə ailədə deyil eyni zamanda cəmiyyətdə də problemlərin həllində fəal iştirak etməlidir.
   - ☐ Qadınlar kişilərdən fərqli olaraq ciddi qərarların qəbulunda iştirak etməməlidir.
   - ☐ Ciddi qərarların qəbulunda kişilərlə bərabər qadınların iştirakı vacibdir.
   - ☐ Qadınlar kişilərlə eyni bilik və bacarıqlara malikdirlər.
   - ☐ Qadın yalnız onun ailəsi icazə verdikdə işləyə bilər.
   - ☐ Qadın ərinin icazəsindən asılı olmayaraq işləyə bilər.
   - ☐ Digər____________________________________________

   ____________________________________________

   ____________________________________________

   ____________________________________________

   Cavablarınızı əsaslandırın(Nə üçün?) ______________________

   ____________________________________________

   ____________________________________________

16. Qadın hüquqlarının qorunması beynəlxalq qanunvericiliklə tənzimlənirmi?
☐Bəli ☐Xeyr ☐Bilmirəm

   Cavab müsbətdirsə, bildiyiniz müvafiq sənədlərin adını göstərin. ______________

   ____________________________________________

   ____________________________________________

   ____________________________________________

17. Siyasi və dövlət əhəmiyyətli qərarların qəbul edilməsində qadınların iştirak etmək arzularını stimullaşdırmaq üçün sizin yaşadığınız, işlədiyiniz yerdə dövlət, QHT və digər orqanlar tərəfindən hər hansı tədbirlər, seminarlar keçirilmişdirmi?
☐Bəli ☐Xeyr ☐Bilmirəm

Əgər cavab müsbətdirsə keçirilən tədbirləri qeyd edin. ______________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

18. Qadınların cəmiyyətin fəal üzvünə çevrilməsinə, biznes aləminə, siyasi həyatın müxtəlif sahələrinə fəal daxil olmasına necə baxırsınız?

☐Müsbət ☐Mənfi

Cavablarınızı əsaslandırın(Nə üçün?) ____________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

19. Dövlət və yerli əhəmiyyətli qərarların qəbulunda qadınların tam iştirak edə bilməməsinin səbəbi: (bir neçə cavab variantı seçilə bilər)
   - ☐ Yoxsulluq
   - ☐ Bilik və savadın aşağı olması
   - ☐ Qadın və kişilər arasında qeyri bərabər səlahiyyət bölgüsünün olması
   - ☐ Cəmiyyətdə kişi və qadın münasibətlərinə stereotip yanaşma
   - ☐ Digər ________________________________________________________________

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

20. Müvafiq qanunverici vəya inzibati tədbirlərin qəbul edilməsi yolu ilə seçilmiş nümayəndələrə(qadın və kişilərə) ailə həyatını və vəzifələrini uzlaşdırmağa imkan yaradılmalıdırmı?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

21. Siyasi və dövlət əhəmiyyətli qərarların qəbul edilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakını təmin etmək üçün pozitiv tədbirlər daxil olmaqla inzibati metodlardan istifadə etmək lazımdırmı?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

22. Qadın və kişilərin qanunverici, icraedici, məhkəmə və s. orqanlarda balanslaşdırılmış iştirakı vacibdirmi?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

23. Həm qərar qəbul etmə vəzifələrinin paylanmasında gender balanslaşdırılmasına əsaslanaraq, həm də qadınların və kişilərin vəzifələrə irəli çəkilməsində bərabər imkanlar yaradılmalıdırmı?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

24. Milli və mədəni azlıqların, xüsusilə bu azlıqlara aid olan qadınların qərar vermənin bütün səviyyələrində daha geniş iştirakını təmin etmək lazımdırmı?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

25. Dövlətdə yüksək vəzifəli şəxsləri, cəmiyyətin müəyyən qruplarını, xüsusilə siyasətçilərin və sosial partnyorların qərar qəbul etmənin bütün səviyyələrində qadın və kişilərin

balanslaşdırılmış iştirakının əhəmiyyətini tam dərk etmək üçün seminar, təlim, mühazirə təşkil edilmlidirmi?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

26. Siyasi partiyalar, ictimai təşkilatlar, QHT-lər qərar qəbul etmə prosesinə təsir göstərən rəhbər orqanlarını formalaşdırarkən qadın və kişilərin bərabər iştirakını nəzərə almalıdırlarmı?

☐Bəli ☐Xeyr ☐Bilmirəm

27. Siz bilən qərar qəbul etmənin bütün səviyyələrində qadın və kişilərin balanslaşdırılmış iştirakını təmin etmək üçün nə etmək lazımdır?

☐ Qanunvericilikdə dəyişiklik etmək lazımdır;

☐ İnzibati amirlik metodundan istifadə etmək lazımdır;

☐ bütün seçkili və təyin etmə orqanlarında qadınlar üçün kvota müəyyən etmək lazımdır;

☐ Qadınlar arasında təbliğat işi aparmaq lazımdır;

☐ Bütün qanunverici və idarəetmə aparatlarının işçilərinə seminar və təlimlər keçirmək lazımdır.

☐ Digər: ____________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Seçdiyiniz cavabı əsaslandırın: ____________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Sorğunun keçirildiyi tarix: ___ _____________ 2008

Sorğunu keçirdi: _______________________

**Əlavə 2. Ekspert internet - sorğunun iştirakçıları.**

1. Arzu Abdullayeva, Xelsinki Vətəndaş Assambleyasının Azərbaycan Milli Komitəsinin sədri.
2. Leyla Əliyeva, politoloq.
3. Mehriban Vəzir, yazıçı – publisist, "Azərbaycan qadınlarının siyasi mədəniyyət mərkəzi" QHT sədri.
4. Ruhəngiz Hüseynova, "Qadın Həmrəyliyi" QHT sədri.
5. Aynur Camalqızı, Milli Məclisin deputatı, "Yeni Azərbaycan" partiyasının üzvü.
6. Ellada Məhərrəmova, "Musavat" partiyasının Məclis üzvü.
7. Lətafət Məlikova, "Musavat" partiyasının Kürdəmir rayonu üzrə şöbəsinin sədr müavini.
8. Məlahət Mürşüdlü, "Azad müəllimlər" İctimai birliyinin sədri.
9. Dilşad Nağıyeva, "Musavat" partiyasının Bakının Xətai rayonu üzrə şöbəsinin sədr müavini.
10. Möminat Ömərova, Avropa Şurasının qadınlar və kişilərin bərabərliyi məsələləri üzrə Rəhbər Komitəsinin Sədri.

**Əlavə 3. Ekspert internet - sorğu üçün suallar.**

**Ekspertlər:**

1. Rəhbər vəzifələrdə qadınların və kişilərin iştirakını necə qiymətləndirirsiniz?
   a) Yerli və mərkəzi hakimiyyət orqanlarında.
   b) Milli Məclisdə
   c) Siyasi sahədə (siyasi partiyalar, müxalifət)
   d) Başqa ictimai sahələrdə (təhsil, elm, mədəniyyət)
   e) Əgər göstərilən sahələrdə qadınların və kişilərin iştirakı arasında fərq varsa, onu nə cür aydınlaşdıra bilərsiniz?

2. Sizin fikrinizcə, hansı sahədə qadınların iştirakı kifayət qədər deyildir?
3. Göstərilən bütün sahələrdə qadınların kifayət qədər təmsil olunmamalarının səbəbi nədədir?
4. Sizin fikrinizcə, göstərilən problemləri hansı tədbirlərin (ölçülərin) köməyilə həll etmək mümkündür?
   a) Dövlətin tədbirləri (ölçülər).
   b) Vətəndaş cəmiyyəti tərəfindən görülən tədbirlər (ölçülər)

**Vətəndaş cəmiyyətinin qadın – siyasətçiləri (uğurlu və uğursuz), qadın – liderləri**

1. Siz necə və nə üçün siyasətlə məşğul olmaq qərarına gəldiniz?
   a) *Başqa sahələrdə fəaliyyət göstərən qadınlar üçün:* Siz necə və nə üçün bu fəaliyyətlə məşğul olmaq qərarına gəldiniz?
2. Öz karyeranızda hansı maneələrlə qarşılaşmısınız?
   a) Cinsi mənsubiyyətinizə görə ayrı-seçkiliyə məruz qalmısınızmı?

b) Kişi həmkarlarınız sizə qarşı necə münasibətdədirlər?
c) Cəmiyyətdə qadınların rolu haqqında mövcud olan stereotiplər sizə maneçilik edirmi?
d) Seçkilərdə məğlub olmuş deputatlığa namizəd qadınlar üçün: Öz məğlubiyyətinizin səbəbini nədə görürsünüz? Bu, sizin qadın olmağınızla bağlıdırmı? Əgər elədirsə, bunu nədə görürsünüz?

3. Sizin həyat yoldaşınız (ümumilikdə ailəniz) fəaliyyətinizə necə münasibət bəsləyirlər?
   a) Siz onların dəstəyini hiss edirsinizmi?
   b) Ailə üzvlərinizin sizin işinizə qarşı olan narazıçılıqlarını dəf etmisinizmi?

4. Sizinlə eyni səviyyədə çalışan (sizinlə eyni olan fəaliyyətlə məşğul ) kişi həmkarlarınızla qeyri – bərabərlik mövcuddurmu?
   a) Əgər elədirsə, bunu nədə görürsünüz?

5. Bundan sonrakı karyera artımınızı necə görürsünüz? Gələcək peşəkar məqsədləriniz hasılardır?
6. Hansısa fəaliyyət sahəsi mövcuddurmu ki, siz orada çalışmaq istərdiniz, amma qadın oluğunuza görə bunu edə bilmirsiniz?
7. Sizin fikrinizcə, qərarların qəbul edilmə prosesində (dövlət və ictimai səviyyələrdə) qaınların lazımi səviyyədə iştirak edə bilməməsinin səbəbi nədədir?
8. Sizin fikrinizcə, qərarların qəbul edilmə prosesində kişilərin və qadınların balanslaşdırılmış iştirakına nail olmaq üçün nə etmək lazımdır?